***Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu nəhəng enerji infrastrukturu layihəsi olan Cənub Qaz Dəhlizi hazırda dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz ehtiyatlarını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdirir. Bu baxımdan, adı çəkilən dəhliz dünya neft-qaz sənayesində ən mühüm layihələrdən biridir.***



# Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə

AMEA Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru  Emin Bağırov fikrini davam etdirərək bildirdi ki, Cənub Qaz Dəhlizi layihəsinin seqmentlərini "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. Prezident İlham Əliyev bütün bunlar barədə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən növbəti iclasında çıxış edərkən ətraflı danışıb. Dövlətimizin başçısı Məşvərət Şurasının ilk iclasından ötən müddətdə birgə fəaliyyət nəticəsində mühüm nailiyyətlər qazanıldığını, həmçinin iclasda iştirak edən ölkələrin sayının əvvəlki dövrlə müqayisədə artdığını vurğulayıb.

Ölkə rəhbəri nitqində  Cənub Qaz Dəhlizi Məşvərət Şurası ilə birgə fəaliyyətin bundan sonra da yeni plan və ideyalar əsasında  davam etdiriləcəyini əminliklə bildirib. Prezident İlham Əliyev daha sonra bu nəhəng layihənin inşasında iştirak edən bütün tərəfdaşlara–Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə, Avropa Komissiyasına, aparıcı beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankına minnətdarlığını çatdırıb.

İclasda, həmçinin Cənub Qaz Dəhlizinin ötən bir il ərzində tam istismarından sonra ümumi işləməsinə nəzər salınıb, eyni zamanda,  sözügedən dövrdə altı ölkədən keçərək, 3500 kilometr məsafəyə qədər uzanan bu dəhliz əsasında Trans-Adriatik boru kəməri ilə Avropa bazarına təxminən 10 milyard kubmetr qaz nəql edildiyi vurğulanıb.




İclasda qeyd edilib ki, Cənub Qaz Dəhlizi layihəsinin icrası zamanı müəyyən çətinliklərin və maneələrin aradan qaldırıldığı xatırladılaraq, bu gün, hətta ən skeptik yanaşan insanlar belə onun gerçəlaşməsindən sevinc hissi keçirirlər. Çünki etibarlı, rəqabətyönlü  və qəbul edilən qiyməti olan təbii qaz artıq Cənub-Şərqi Avropaya yol tapmaq üzrədir. Bəli, dünyanın indiki təbii qaz böhranı şəraitində evlər qazla təchiz olunur, binalar isidilir və vətəndaşlar ehtiyac duyduğu enerjini alırlar. Artan enerji qiymətləri və sərt qaz təchizatı ilə Cənub Qaz Dəhlizi layihəsinin rolu Avropa İttifaqı üçün heç vaxt görünməyən strateji önəm daşıyır. Əlbəttə, bütün bu uğurun davamlı olacağına dünyada böyük əminliklə yanaşılır.

Xatırladım ki, artıq bu məsələ ilə bağlı növbəti mərhələ qarşısındayıq. Başqa sözlə, ekspertlər hazırda adı çəkilən dəhlizin ötürücülük qabiliyyətinin artırılması, yaxud coğrafi baxımdan genişləndirmək gücü barədə düşünürlər. Qeyd edim ki, bu məsələnin müzakirəsinə hələ ötən il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti toplantısında başlanılıb.

Həmin vaxtdan etibarən dəhlizlə bağlı siyasi söhbətlər və qazla əlaqədar geniş müzakirələr aparılıb. Avropa İttifaqı qazın keçid dövründə rolu, onun tənzimləyici və infrastruktur təsiri ilə əlaqədar öz mövqeyini aydınlaşdırıb.

İclasda diqqətçəkən məqamlardan biri də  bərpaolunan enerji mənbələrinin reallaşdırılması ilə bağlı idi. Yeri gəlmişkən, bu məsələ Avropanın uzunmüddətli planlarının təməl daşını təşkil edir. Bu, nəinki Azərbaycanda dekarbonlaşmanı gerçəkləşdirməyə, hətta daha böyük bərpaolunan enerji mənbələrinin həyata keçirilməsinə  yardım göstərməyə ümid yaradır.

Bu məsələ artıq  Cənub Qaz Dəhlizi Məşvərət Şurası tərəfindən də maraqla izlənilir və dəstəklənir. Burada diqqətçəkən məqam odur ki, respublikamızda bərpaolunan enerji mənbələrinin reallaşdırılması üçün indiki mərhələdə kifayət qədər potensial, bilik və təcrübə mövcuddur, bu istiqamətdə tətbiq edilə bilən texnologiyalar var. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu məsələyə toxunaraq, təkcə Xəzər dənizində bərpaolunan enerji mənbələri potensialının mövcudluğunu xatırlatdı. Bu, xarici tərəfdaşlarımız tərəfindən də ölkəmiz üçün mühüm imkan kimi dəyərləndirilir.

***Söhbəti qələmə aldı:***
***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***